Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il
tarixli qərarı ilə təsdiq edilmiş, 16 aprel, 7
may və 30 iyun 2021-ci il, 18 noyabr, 9
dekabr 2022-ci il tarixli qərarları ilə əlavə
və dəyişikliklər edilmişdir.

**DİSSERTASİYA ŞURALARININ YARADILMASI VƏ FƏALİYYƏTİNİN TƏŞKİLİ BARƏDƏ**

# T Ə L İ M A T

## 1. Ümumi müddəalar

1.1.“Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat” (bundan sonra - Təlimat) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 4.15-ci bəndinə uyğun olaraq hazırlanmışdır və həmin Əsasnamənin müddəaları nəzərə alınmaqla elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində onların vəsatətləri əsasında fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili məsələlərini tənzimləyir.

1.2. Dissertasiya şuralarının fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra - Komissiya) nəzarət edir.

## 2. Dissertasiya şuralarının yaradılması

2.1. Dissertasiya şuraları vahid sistem əsasında, uyğun ixtisaslar üzrə elmin, texnikanın, təhsilin, mədəniyyətin və incəsənətin müxtəlif sahələrində daim elmi araşdırmalar aparan, yüksəkixtisaslı elmi kadr potensialına malik olan mülkiyyət formasından asılı olmayaraq elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində onların vəsatətləri əsasında fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Komissiya tərəfindən yaradılır.

2.2. Dissertasiya şurasının yaradılması haqqında vəsatətdə həmin təşkilatda doktoranturanın olması qeyd edilir, dissertasiya şurasının yaradılmasının zəruriliyi və məqsədəuyğunluğu əsaslandırılır, dissertasiya şurasının fəaliyyəti üçün lazımi şəraitin yaradılmasına, dissertasiyaların müzakirəsi və müdafiəsi üçün tələb olunan vəsaitin ayrılmasına təminat verilir.

2.3.Vəsatətə dissertasiya şurasının tərkibinə əvvəlcədən yazılı razılıqları alınmaqla təklif edilən üzvlər barədə müvafiq qaydada hazırlanan məlumat əlavə edilir (Əlavə 1.1 və Əlavə 1.1.1).

2.4. Dissertasiya şuralarının fəaliyyət müddətini Komissiya üç ilədək müəyyən edir.

2.5. Dissertasiya şuraları bir neçə ixtisas üzrə (dörddən çox olmamaqla) yaradılır.

2.6. Dissertasiya şurasında hər bir ixtisas üzrə üzvlərin sayı bərabər və hər bir ixtisas üzrə beş nəfərdən az olmamalıdır.

2.7. Dissertasiya şurasının üzvlərinin sayı on nəfərdən az, iyirmi səkkiz nəfərdən çox olmamalıdır.

2.8. Dissertasiya şuralarının tərkibinə fəal elmi və ya elmi-pedaqoji iş aparan yüksəkixtisaslı mütəxəssislər daxil edilirlər.

2.9. Dissertasiya şurasının sədri – dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində işləyən və ya dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbərinin razılığı ilə digər elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində işləyən elmlər doktoru təyin edilir.

2.10. Dissertasiya şurasının elmi katibi – ixtisası dissertasiya şurasına verilmiş ixtisaslardan birinə uyğun olan, dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində işləyən (əsas iş yeri) fəlsəfə və ya elmlər doktoru təyin olunur. Elmlər doktoru dissertasiyasının müdafiəsini keçirən dissertasiya şurasının elmi katibi fəlsəfə doktoru da ola bilər.

2.11. Dissertasiya şurasının tərkibinə yüksəkixtisaslı əcnəbi mütəxəssislər də daxil edilə bilərlər.

2.12. Fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi üçün yaradılmış dissertasiya şurasının tərkibində ixtisas üzrə azı iki elmlər doktoru, elmlər doktoru dissertasiyalarının

müdafiəsi üçün yaradılmış dissertasiya şurasının tərkibində ixtisas üzrə azı dörd elmlər doktoru olmalıdır.

2.13. Dissertasiya şurasının tərkibində hər bir mütəxəssis müvafiq elm sahəsində bir ixtisası təmsil edir.

2.14. İki ixtisas üzrə elmi dərəcəsi olan mütəxəssislər hər bir ixtisas üzrə yalnız bir dissertasiya şurasında təmsil oluna bilər.

2.15. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri müvafiq elm sahəsi üzrə iki ixtisası təmsil edə bilərlər. Bu zaman onlar hər bir ixtisas üzrə yalnız bir dissertasiya şurasında təmsil olunurlar.

2.16. Dissertasiya şurasının tərkibində müvafiq ixtisas üzrə elmlər doktorlarının sayını təmin etmək mümkün olmadıqda, həmin ixtisas üzrə elmi və elmi-pedaqoji fəaliyyətə görə professor elmi adı almış fəlsəfə doktorları, o cümlədən mədəniyyət, incəsənət, memarlıq, hərbi, bədən tərbiyəsi və idman sahələrində uzun müddət qüsursuz çalışan və əhəmiyyətli nailiyyətlər əldə etmiş, lakin elmi dərəcəsi olmayan professor elmi adı almış elmi və elmi-pedaqoji kadrlar elmlər doktorlarını əvəz edə bilərlər.

2.17. Müvafiq elm sahələri üzrə yüksəkixtisaslı elmi kadr hazırlamaq səlahiyyəti olan (doktoranturası olan) dörddən çox olmamaqla bir neçə elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin mütəxəssislərindən ibarət, onların rəhbərlərinin qarşılıqlı razılığı əsasında həmin elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin birində birgə dissertasiya şuraları yaradıla bilər.

2.18. Birgə dissertasiya şurasının yaradılması haqqında vəsatət həmin şuranın fəaliyyət göstərəcəyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbəri tərəfindən qaldırılır. Vəsatətə elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələri arasında fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün birgə dissertasiya şuralarının yaradılması məqsədi ilə qarşılıqlı razılaşmaya dair müvafiq sənəd əlavə edilir.

2.19. Birgə dissertasiya şurasında həmin şuranın yaradılması barədə razılığa gəlmiş elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin hər birindən mütəxəssis təmsil olunur.

2.20. “Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələr verilməsinə dair ixtisasların nomenklaturu”nda dəyişikliklər olduqda müvafiq dissertasiya şurasının təşkilinə Komissiya tərəfindən yenidən baxılır.

2.21. Dissertasiya şurasının sədrinin və digər üzvlərinin dəyişdirilməsi (dəyişikliyin zəruriliyi əsaslandırılmaqla) həmin şuranın yaradıldığı elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin vəsatəti əsasında Komissiya tərəfindən həyata keçirilir. Vəsatətə dissertasiya şurasına daxil edilməsi təklif olunan mütəxəssislər haqqında məlumat əlavə edilir (Əlavə 1.1 və Əlavə 1.1.1).

2.22. Müvafiq ixtisas və ya ixtisaslar üzrə dissertasiyaların müdafiəsi üçün dissertasiya şurası olmadıqda, dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi birdəfəlik dissertasiya şurasının yaradılması üçün Komissiya qarşısında vəsatət qaldırır. Birdəfəlik dissertasiya şurası "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.6-cı bəndinin tələbləri nəzərə alınmaqla müvafiq elm sahələri üzrə fəaliyyət göstərən dissertasiya şurasının bazasında və ya ayrıca yaradılmaqla (azı iki ixtisas təmsil olunmalıdır), bir və ya bir neçə dissertasiyanın müdafiəsi üçün nəzərdə tutulur.

2.23. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə və dissertasiya şurasının ikinci ixtisas üzrə müdafiə keçirmək hüququ olmadıqda, Komissiya müdafiənin keçirilməsi üçün birdəfəlik dissertasiya şurasının tərkibinə dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi təşkilatın vəsatəti əsasında tələb olunan ixtisas və uyğun mütəxəssislər daxil edir (Əlavə 1.1 və Əlavə 1.1.1 ilə nəzərdə tutulan məlumatlar təqdim edilməklə). Bu zaman "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.6-cı bəndinin tələbi nəzərə alınmaqla həmin ixtisasa yaxın olmayan ixtisaslardan biri və həmin ixtisas üzrə mütəxəssislər Komissiyanın qərarı ilə müvəqqəti olaraq dissertasiya şurasının tərkibindən çıxarılır.

2.24. Elmlər doktoru dissertasiyalarının müdafiəsini keçirən dissertasiya şuraları uyğun ixtisaslar üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyaları da müdafiəyə qəbul edir.

2.25. Dissertasiya şuraları nəzdində fəaliyyət göstərdikləri elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin əsas möhür və blankından istifadə edirlər.

2.26. Elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin rəhbərləri dissertasiya şuralarının işinin təşkili və müdafiələrin keçirilməsi üçün zəruri şərait yaradılmasını təmin edir.

2.27. Dissertasiya şuralarının fəaliyyətinin maliyyələşdirilməsini (dissertasiya şurası üzvlərinin əməyinin ödənilməsi, antiplagiat proqramı ilə təminat, dissertasiya müdafiələrinin videoçəkilişi, canlı yayımının təşkili və s.) dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi həyata keçirir.

2.28. Dissertasiya şuraları Komissiyaya fəaliyyətlərinə dair müəyyən edilmiş qaydada tərtib edilən (Əlavə 1.2, Əlavə 1.2.1, Əlavə 1.2.2 və Əlavə 1.2.3) və özündə müvafiq məlumatları əks etdirən illik və yekun hesabatlar təqdim edirlər.

## 3. Dissertasiyaların ilkin müzakirəsi və onların dissertasiya şurasına təqdim olunması

3.1. Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının müvafiq elmi istiqamətlər üzrə elmi şurası tərəfindən təsdiq olunmuş mövzu üzrə dissertasiya işi "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi iddiaçılarına, dissertasiyaya və avtoreferata dair tələbləri ödənildiyi halda iddiaçı tərəfindən işin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilata, ali təhsil müəssisəsinə ilkin müzakirəyə təqdim edilir.

3.2. Elmi müəssisə və təşkilata, ali təhsil müəssisəsinə təqdim edilmiş dissertasiya işinin ilkin müzakirəsi iddiaçının rəsmi müraciət tarixindən etibarən üç aydan gec olmayaraq həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbərinin yazılı razılığı ilə keçirilir.

3.3. İlkin müzakirənin keçirilməsi üçün fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları üzrə azı iki rəyçinin (elmlər doktoru dissertasiyaları üzrə hər ikisi elmlər doktoru olmalı) olması zəruridir. Rəylərdə dissertasiyanın "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin tələblərinə uyğun qaydada tərtibinə münasibət, mövzu və məzmunun iddia olunan ixtisasa uyğunluğu, dissertasiyanın hər bir struktur bölməsinin hansı problemə həsr olunması və dissertasiyanın mövzusu üzrə çap olunmuş elmi işlər, dissertasiya üzrə avtoreferatın ilkin versiyası, dissertasiya işinin müdafiəsi üçün tövsiyə edilən Dissertasiya şurası haqqında qeydlər əks olunur.

3.4. Fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının ilkin müzakirəsi zamanı dissertasiyanın yazıldığı ixtisas və ya ixtisaslar üzrə elmi dərəcəsi olan azı üç mütəxəssis

(elmlər doktoru dissertasiyasının ilkin müzakirəsi zamanı azı ikisi elmlər doktoru olmalı) iştirak etməlidir.

3.5. Dissertasiya işi bir neçə elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində və ya bir elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin bir neçə bölməsində (kafedra, departament, mərkəz, bölmə, şöbə, laboratoriya və s.) yerinə yetirildiyi hallarda dissertasiyanın ilkin müzakirəsi onların hər birində və ya birgə iclaslarında keçirilməlidir.

3.6. İddiaçıya bir aydan gec olmayaraq ilkin müzakirənin keçirildiyi iclasın geniş protokolu və dissertasiya haqqında rəy verilir. Protokol iclasın sədri və katibi tərəfindən imzalanır, onların imzası elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi katibi (və ya elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin Elmi Şurasının katibi) tərəfindən müvafiq qaydada təsdiq olunur. Rəy kafedra, departament, mərkəz, bölmə, şöbə, laboratoriya iclasının və ya seminarın protokolundan çıxarış şəklində tərtib edilir. Protokolun və rəyin birinci səhifəsinin yuxarı sağ küncündə elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbərinin imzası həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin əsas möhürü ilə təsdiq olunur.

3.7. Elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbəri geniş protokol və rəyin keyfiyyəti, obyektivliyi və hazırlanma müddəti üçün cavabdehdir.

3.8. Rəydə dissertasiya işində şərh olunan elmi nəticələrin alınmasında iddiaçının konkret şəxsi iştirakı, tədqiqat nəticələrinin dürüstlük dərəcəsi, onların elmi yeniliyi, praktiki və metodiki əhəmiyyəti, dissertasiyanın müvafiq ixtisasa uyğun gəlməsi, iddiaçının dərc olunmuş işlərində dissertasiya materiallarının əks etdirilməsi dərəcəsi göstərilməlidir.

3.9. Dissertasiya işinin ilkin müzakirəsinin gedişinin videoçəkilişi aparılaraq elektron daşıyıcıda saxlanılır və dissertasiya işi Komissiyaya təqdim edildikdə iddiaçının digər sənədlərinə əlavə olunur.

3.10. Dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində ilkin müzakirənin nəticəsində verilən geniş protokol və rəylə birlikdə dissertasiya işi, Komissiyanın müəyyən etdiyi siyahı üzrə digər sənədlər (Əlavə 1.5) həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin vəsatəti ilə (iddiaçının seçimi nəzərə alınmaqla) müvafiq ixtisas üzrə fəaliyyət göstərən dissertasiya şuralarının hər hansı birinə müdafiə üçün təqdim edilir.

3.11. Dissertasiya işi ilkin müzakirənin keçirildiyi tarixdən bir il müddətində müdafiənin təşkili üçün müvafiq dissertasiya şurasına təqdim edilməlidir. Əks halda dissertasiya işi yenidən ilkin müzakirədən keçirildikdən sonra müvafiq dissertasiya şurasına təqdim oluna bilər.

## 4. Dissertasiya şuralarının fəaliyyəti

4.1. Dissertasiya şurası dissertasiya və sənədlərin təqdim olunduğu gündən etibarən fəlsəfə doktoru dissertasiyasının müdafiəsinin təşkili haqqında qərarı dörd ay, elmlər doktoru dissertasiyasının müdafiəsinin təşkili haqqında qərarı altı ay müddətində qəbul edir. Təqdim olunmuş işlərə onların qəbul tarixinə uyğun ardıcıllıqla baxılır.

4.2. Dissertasiya şurasında bir ay ərzində iki fəlsəfə doktoru və bir elmlər doktoru və ya dörd fəlsəfə doktoru dissertasiyasının müdafiəsi keçirilə bilər.

4.3. Dissertasiya şurasında bir gün ərzində iki fəlsəfə doktoru və ya bir elmlər doktoru dissertasiyasının müdafiəsi keçirilə bilər.

4.4. Dissertasiya şurasında iddiaçıya dissertasiyanın müdafiəsi üçün əlverişli şərait yaradılmalı, ona dissertasiyasının müdafiəsinə aid dissertasiya şurasında olan məlumatlarla tanış olmaq imkanı verilməlidir.

4.5. İlkin müzakirədən sonra dissertasiyanın müdafiəsinə qədər iddiaçının elmi rəhbəri vəfat etdikdə və ya iddiaçının elmi rəhbəri olmaqdan imtina etdikdə iddiaçı elmi rəhbər olmadan dissertasiyanın müdafiəsinə buraxılır.

4.6. Dissertasiya şurası aşkarlıq şəraitində fəaliyyət göstərir. Dissertasiya işinə tam, hərtərəfli, obyektiv baxılmasını və bu iş barəsində əsaslandırılmış qərar çıxarılmasını təmin etmək məqsədilə dissertasiya şurası müvafiq müəssisə və təşkilatlardan dissertasiya işinə aid məlumatları tələb edə bilər.

4.7. Dissertasiya şurasının fəaliyyəti ilə əlaqədar kargüzarlıq işləri Azərbaycan dilində aparılır.

4.8. Komissiyanın müəyyən etdiyi siyahı üzrə tələb olunan sənədlər təqdim edildikdə (Əlavə 1.5) dissertasiya şurası dissertasiyanı müzakirə və müdafiə üçün qəbul edir və dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair qərar qəbul edilməsi üçün dissertasiya şuraları nəzdində elmi seminara (bundan sonra – elmi seminar) göndərir.

4.9. Elmi seminarın fəaliyyəti Komissiya tərəfindən təsdiq edilən “Dissertasiya şuraları nəzdində elmi seminarın fəaliyyətinin təşkili Qaydası” ilə tənzimlənir.

4.10. Dissertasiya şurası “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 5.19-cu bəndi ilə nəzərdə tutulmuş qaydada elmi seminarın protokolunu qəbul etdikdən sonra rəsmi opponentlərin və müdafiənin keçirilməsi tarixinin müəyyən edilməsinə dair təkliflərin hazırlanması üçün müvafiq ixtisas üzrə üç nəfər şura üzvündən ibarət işçi komissiya yaradır.

4.11. Dissertasiya şurasında dissertasiya işlərinin müdafiəsi elmi seminarların protokol tarixlərinə uyğun növbəlilik əsasında keçirilir.

4.12. Elmi seminar dissertasiyanı müdafiə üçün tövsiyə etmədiyi halda, dissertasiya şurası müzakirə zamanı müəyyən edilmiş nöqsanların əsaslandırıldığı qərarını vəsatət qaldıran elmi müəssisə və təşkilata, ali təhsil müəssisəsinə göndərir və dissertasiya və sənədləri iddiaçıya qaytarır.

4.13. Elmi seminar dissertasiyanı müdafiə üçün tövsiyə etmədiyi halda, dissertasiya işinin müdafiəyə buraxılmaması haqqında dissertasiya şurasının qərarı qəbul edildiyi gündən bir ildən tez olmamaq şərtilə dissertasiya işi yenidən işlənməklə ilkin müzakirədən keçirilərək təkrar müdafiəyə təqdim edilə bilər.

4.14. İddiaçının müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə etdiyi aşkar olunarsa, dissertasiya şurası, dissertasiyaya baxılma mərhələsindən asılı olmayaraq, həmin dissertasiya üzrə təkrar müdafiə hüququ verilmədən dissertasiyanın ekspertizasını dayandırır. Bu zaman iddiaçının dissertasiya işinə baxılmanı dayandırmaq haqqında ərizəsi qəbul olunmur, dissertasiya və avtoreferat dissertasiya şurasının qərarı ilə birlikdə müvafiq məktubla Komissiyaya göndərilir.

4.15. Dissertasiya şurası işçi komissiyanın təkliflərini nəzərə alaraq müvafiq elm sahəsində fəal elmi tədqiqatlar aparan və elmi, elmi-pedaqoji və yaradıcılıq nailiyyətləri olan yüksəkixtisaslı mütəxəssislərdən - səriştəli alimlərdən rəsmi opponentləri (onların yazılı razılığı ilə), müdafiənin tarixini və vaxtını təyin edir.

4.16. Fəlsəfə doktoru dissertasiyası üzrə elmi dərəcəsi olan üç rəsmi opponent (azı biri elmlər doktoru olmaqla) təyin edilir. Rəsmi opponentlərdən biri müdafiəni keçirən şuranın üzvü ola bilər. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə, ixtisaslardan biri üzrə bir (elmlər doktoru), digəri üzrə iki rəsmi opponent təyin olunur.

4.17. Elmlər doktoru dissertasiyası üzrə elmlər doktoru elmi dərəcəsi olan dörd rəsmi opponent təyin olunur. Rəsmi opponentlərdən ikisi müdafiəni keçirən şuranın üzvü ola bilər. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər bir ixtisas üzrə iki rəsmi opponent təyin olunur.

4.18. Rəsmi opponentlər eyni təşkilatı təmsil etməməlidirlər.

4.19. Komissiyanın Rəyasət Heyətinin sədri və üzvləri, Komissiya Aparatının əməkdaşları, dissertasiya şuralarının sədrləri və sədr müavinləri, elmi katibləri, elmi seminarların sədrləri, iddiaçıların elmi rəhbərləri, elmi məsləhətçiləri, iddiaçının elmi əsərlərinin həmmüəllifləri, həmçinin dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının işlədiyi kafedra, laboratoriya və ya şöbənin əməkdaşları, müəssisənin rəhbərləri, ekspert şuralarının sədrləri, sədr müavinləri və elmi dərəcələr verilməsində fəaliyyətinə bu Əsasnaməyə uyğun olaraq Komissiyanın məhdudiyyət qoyduğu şəxslər rəsmi opponent ola bilməzlər.

4.20. Ekspert şuralarının üzvləri yalnız Komissiyanın razılığı ilə rəsmi opponent təyin oluna bilərlər.

4.21. Rəsmi opponentlərin əməyi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada ödənilir.

4.22. Rəsmi opponent dissertasiyanı və onun mövzusu üzrə dərc olunmuş elmi işləri araşdıraraq, dissertasiya şurasına yazılı rəy təqdim edir. Həmin rəydə mövzunun aktuallığı, nəticələrin yeniliyi və nəzəri-praktiki əhəmiyyəti, dissertasiyanın “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin tələblərinə uyğunluğu öz əksini tapmalıdır.

4.23. Rəsmi opponentlərin dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində təsdiq olunmuş yazılı rəyləri müdafiə gününə azı on gün qalmış dissertasiya şurasına, rəylərin surəti isə iddiaçıya təqdim edilməlidir.

4.24. Rəsmi opponent “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə” ilə müəyyən edilmiş tələbləri yerinə yetirmədikdə dissertasiya şurası onu dəyişə və ya həmin Əsasnamə ilə müəyyən edilmiş tələblərə cavab vermədikdə onun yazdığı rəyi yenidən işləmək üçün geri qaytara bilər.

4.25. Dissertasiya şurası iddiaçının və digər maraqlı şəxslərin əsaslandırılmış rəsmi müraciəti əsasında Komissiyanın razılığı ilə dissertasiyanın müdafiə tarixini və vaxtını dəyişdirə bilər.

4.26. Müdafiənin yeni təyin olunmuş tarixi və vaxtı haqqında iddiaçıya məlumat verilir, həmin məlumat, eyni zamanda dissertasiya şurasının fəaliyyət göstərdiyi təşkilatın və Komissiyanın rəsmi internet saytında yerləşdirilir.

4.27. Rəsmi opponentlər təyin edildikdən sonra dissertasiya şurası Komissiya tərəfindən müəyyən edilən qaydada tərtib olunan avtoreferatın (Əlavə 1.4) əlyazması hüququnda çapına razılıq verir və Komissiyanın müəyyən etdiyi "Dissertasiyaların avtoreferatlarının göndərilməli olduğu təşkilatların siyahısı"na (Əlavə 1.6) əlavə olaraq digər ünvanları müəyyən edir.

4.28. Müdafiəsinin tarixi və vaxtı təyin olunmuş dissertasiya işinin avtoreferatı dissertasiyanın müdafiəsinə azı bir ay qalmış Komissiyanın müəyyən etdiyi siyahı üzrə zəruri ünvanlara göndərilməli və Komissiyaya elektron daşıyıcıda da təqdim edilməlidir.

4.29. Dissertasiya şurasına təqdim olunan dissertasiya və avtoreferatın bir nüsxəsi müdafiə gününə azı bir ay qalmış əlyazması hüququnda saxlanılmaq üçün şuranın fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin kitabxanasına verilir, avtoreferatların elektron versiyaları (məzmununda dövlət sirri təşkil edən məlumatlar olan avtoreferat istisna olmaqla) həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin, Komissiyanın rəsmi internet saytında yerləşdirilir.

4.30. Zərurət yarandıqda, dissertasiya şurası müvafiq qaydada şuranın tərkibinə əlavə üzvlərin daxil edilməsi ilə bağlı Komissiya qarşısında vəsatət qaldırır.

4.31. Dissertasiya şurası müdafiənin nəticəsi haqqında müsbət qərar qəbul etdikdən sonra iki ay müddətində iddiaçının elmi dərəcə almaq üçün Komissiyanın müəyyən etdiyi qaydada tərtib olunmuş sənədlərini, dissertasiyanın bir nüsxəsini və onların elektron versiyasını (Əlavə 1.14) Komissiyaya təqdim edir.

4.32. Dissertasiya şurası müdafiənin nəticəsi haqqında mənfi qərar qəbul etdikdən sonra iki ay müddətində iddiaçının aşağıdakı sənədlərini Komissiyaya təqdim edir:

4.32.1. Dissertasiya şurasının sədri tərəfindən imzalanmış, elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin blankında çap olunmuş məktubu;

4.32.2. Dissertasiya və avtoreferatın bir nüsxəsi və onların elektron versiyalarını;

4.32.3. Dissertasiya şurasının nəzdində fəaliyyət göstərən elmi seminarın protokolu, elmi seminarda verilən rəylər (o cümlədən elekton daşıyıcıda) və elmi seminarın gedişinin videoçəkilişini;

4.32.4. Dissertasiya şurası iclasının sədri və elmi katibi tərəfindən imzalanmış stenoqram, elmi rəhbərin və ya elmi məsləhətçinin, rəsmi opponentlərin rəyləri və avtoreferata verilən rəylər (o cümlədən elektron daşıyıcıda), müdafiənin gedişinin videoçəkilişini;

4.32.5. Dissertasiya şurasının mənfi qərarına dair qeydiyyat vərəqini (Əlavə 1.13);

4.32.6. Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi verilməsi haqqında arayışı (Əlavə 1.10 və Əlavə 1.10.1);

4.32.7. İştiraketmə vərəqini (Əlavə 1.7);

4.32.8. Hesablama komissiyasının protokolunu (Əlavə 1.9);

4.32.9. İddiaçının şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün pasportunun notariat qaydasında təsdiq olunmuş surəti);

4.32.10. İddiaçının şəxsi məlumat vərəqi;

4.32.11. İddiaçının əmək kitabçasının əsas iş yerində (işləməyənlər üçün dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində) təsdiq olunmuş surəti.

4.33. Dissertasiya şurası müdafiənin nəticəsi haqqında mənfi qərar qəbul etdikdən sonra iki ay müddətində aşağıdakı sənədləri iddiaçıya qaytarır:

4.33.1. Dissertasiya mövzusunun və ixtisasın müəyyən edilməsi və elmi rəhbərin və ya elmi məsləhətçinin təsdiq olunması haqqında elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi (elmi-texniki) şurasının iclasının protokolundan çıxarışı;

4.33.2. Dissertasiya mövzusunun və ixtisasın Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının elmi istiqamətlər üzrə elmi şurasında təsdiq edilməsi haqqında protokoldan çıxarışı;

4.33.3. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq sənədləri (şəhadətnamə və ya ona bərabər tutulan vəsiqələri);

4.33.4. Dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində dissertasiya işinin ilkin müzakirəsinin nəticəsində verilən geniş protokol və rəy, dissertasiya işinin ilkin müzakirəsi üçün verilmiş rəylər (o cümlədən elektron daşıyıcıda), dissertasiya işinin ilkin müzakirəsinin gedişinin videoçəkilişini.

4.34. Bu Təlimatın 4.33-cü bəndində qeyd edilən sənədlər iddiaçıya şəxsən qaytarılır və dissertasiya şurasında müvafiq qeydlər kitabına bu barədə qeyd daxil edilir. İddiaçı imzası ilə həmin sənədlərin ona qaytarıldığını təsdiq edir və tarix qoyur.

4.35. Dissertasiya şurası müdafiənin nəticəsi haqqında mənfi qərar qəbul etdikdə, dissertasiya işi yenidən işlənmək üçün həmin qərar qəbul edildiyi gündən bir ildən tez olmamaq şərtilə ilkin müzakirədən keçirilərək təkrar müdafiəyə təqdim edilə bilər.

4.36. Təkrar müdafiə zamanı yeni rəsmi opponentlər təyin edilir. Əvvəlki müdafiə zamanı verilmiş bütün mənfi rəylər təkrar müdafiədə səsləndirilməlidir.

4.37. Dissertasiya işinə baxılma prosesində hazırlanmış bütün sənədlər dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində saxlanılır və tələb edildikdə təkrar müdafiə keçirilən təşkilata göndərilir.

4.38. İddiaçının elmi dərəcə almaq üçün təqdim edilmiş sənədləri on ildən az olmayan müddətdə dissertasiya şurasının nəzdində fəaliyyət göstərdiyi müəssisənin və Komissiyanın arxivlərində saxlanılır.

4.39. İddiaçının müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə etdiyi aşkar olunarsa, dissertasiya şurası, dissertasiyaya baxılma mərhələsindən asılı olmayaraq, həmin dissertasiya üzrə təkrar müdafiə hüququ verilmədən dissertasiyanın ekspertizasını dayandırır. Bu zaman iddiaçının dissertasiya işinə baxılmanı dayandırmaq haqqında ərizəsi qəbul olunmur, iclasın stenoqramı, dissertasiya və avtoreferat dissertasiya şurasının qərarı ilə birlikdə müvafiq məktubla Komissiyaya göndərilir.

4.40. Elmi müəssisə və təşkilatların rəhbərləri və onların müavinləri, ali təhsil müəssisələrinin rektor və prorektorları rəhbərlik etdikləri qurumların nəzdində fəaliyyət göstərən dissertasiya şuralarında müdafiə edə bilməzlər.

4.41. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri dissertasiya şuralarının sədri, sədr müavinləri ola bilməzlər.

4.42. Komissiya dissertasiya şurasında müdafiə prosedurunun pozulduğunu aşkar etdikdə, dissertasiya şurasının iclasına sədrlik etmiş şəxsə və dissertasiya şurasının elmi katibinə bu barədə rəsmi xəbərdarlıq edir.

4.43. Komissiya dissertasiya şurasında müdafiə prosedurunun pozulduğunu aşkar etdiyi halda dissertasiyanın təkrar müdafiəsi Komissiyanın Rəyasət Heyətinin bu barədə qərarından sonra üç aydan tez olmayaraq keçirilir.

4.44. Komissiya dissertasiya şurasında üçüncü dəfə müdafiə prosedurunun pozulduğunu aşkar etdikdə, dissertasiya şurasının iclasına sədrlik etmiş şəxsi və dissertasiya şurasının elmi katibini, üç il müddətində təkrar təyin olunmaq hüququ olmadan, dissertasiya şurasında vəzifələrinin icrasından kənarlaşdırır.

4.45. Komissiya dissertasiya şurasında müdafiə olunmuş işdə müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə olunduğunu aşkar etdikdə, dissertasiya şurasının həmin iclasına sədrlik etmiş şəxsə, dissertasiya şurasının elmi katibinə və dissertasiya şurasının nəzdində fəaliyyət göstərən elmi seminarın sədrinə bu barədə rəsmi xəbərdarlıq edir.

4.46. Komissiya üçüncü dəfə dissertasiya şurasında müdafiə olunmuş işdə müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə olunduğunu aşkar etdikdə, dissertasiya şurasının həmin iclasına sədrlik etmiş şəxsi, dissertasiya şurasının elmi katibini və dissertasiya şurasının nəzdində fəaliyyət göstərən elmi seminarın sədrini, üç il müddətində təkrar təyin olunmaq hüququ olmadan, dissertasiya şurasında və elmi seminarda vəzifələrinin icrasından kənarlaşdırır.

4.47. Komissiya dissertasiya şurasında müdafiə olunmuş işdə müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə edildiyini aşkar etdikdə, elmi rəhbərin, elmi məsləhətçinin və rəsmi opponentlərin (müsbət rəy verdikləri halda) üç il müddətinədək həmin vəzifələri tutmasına məhdudiyyət tətbiq edir.

4.48. Komissiya dissertasiya şurasında müdafiə olunmuş işdə müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə edildiyini aşkar etdikdə, fəlsəfə doktoru elmi dərəcəsinin iddiaçılarına Komissiyanın bu barədə qərarından sonra üç il, elmlər doktoru elmi dərəcəsinin iddiaçılarına isə beş il müddətində müdafiə etmək hüququ vermir. İddiaçı yenidən həmin mövzuda dissertasiya müdafiə edə bilməz.

## 5. Dissertasiya şurasının iclasının keçirilmə proseduru

5.1. Dissertasiya şurasının iclası onun başlanmasından gizli səsvermənin nəticələri haqqında yekun rəy qəbul edilənədək üzvlərin azı üçdə iki hissəsi iclasda iştirak etdikdə səlahiyyətli sayılır.

5.2. Dissertasiya şurasının iclasının başlandığı və qurtardığı vaxt yazılmaqla müdafiədə iştirak edən dissertasiya şurası üzvləri (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı və ixtisasının şifri və adı), o cümlədən səbəb göstərilməklə iclasda iştirak etməyən dissertasiya şurası üzvləri (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı və ixtisasının şifri və adı) haqqında məlumat stenoqramda öz əksini tapmalıdır.

5.3. İki ixtisas üzrə yaradılmış dissertasiya şurasının iclasında müdafiə zamanı bu Təlimatın 5.1-ci bəndinin tələbləri nəzərə alınmaqla digər ixtisas üzrə şura üzvlərindən azı üçü iclasda iştirak etməlidir.

5.4. Dissertasiya şurasının iclasında müdafiə zamanı ixtisas üzrə elmi dərəcəsi olan azı beş şura üzvü iştirak etməli və fəlsəfə doktoru dissertasiyasının müdafiəsi zamanı onlardan azı iki nəfəri, elmlər doktoru dissertasiyasının müdafiəsi zamanı isə azı dörd nəfəri elmlər doktoru olmalıdır.

5.5. Dissertasiyanın müdafiəsində rəsmi opponentlərin iştirakı mütləqdir.

5.6. Müstəsna hallarda müsbət rəy vermiş rəsmi opponentlərdən yalnız birinin müdafiədə iştirak etməməsinə icazə verilir. Bu halda dissertasiya şurasının iclasında həmin rəsmi opponentin rəyi oxunur.

5.7. Dissertasiyaya dair rəsmi opponentlərin verdikləri rəylər mənfi olduğu halda da dissertasiyanın müdafiəsi keçirilir.

5.8. Dissertasiyanın müdafiəsi bir qayda olaraq, Azərbaycan dilində keçirilir. Dissertasiya şurası üzvlərinin və rəsmi opponentlərin açıq səsverməsi əsasında səs çoxluğu ilə qəbul olunmuş qərarla dissertasiyanın müdafiəsi, sinxron tərcümə təmin edilməklə, digər dildə keçirilə bilər.

5.9. Dissertasiya müdafiələri keçirilən iclas zallarında müşahidə kameraları qurulur, Komissiya tərəfindən müdafiələrin gedişinin canlı olaraq izlənməsi üçün həmin nəzarət kameraları müdafiə başlamazdan əvvəl işçi vəziyyətə gətirilir. İclas zalının müşahidə kameraları ilə təchiz edilməsi dissertasiya müdafiəsinin keçirildiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi tərəfindən həyata keçirilir.

5.10. Dissertasiya işinin müdafiəsi üzrə dissertasiya şurasının iclası dissertasiya şurasının sədri, sədr iştirak etmədikdə isə şura sədrinin müavini tərəfindən aparılır.

5.11. Dissertasiya şurasına sədrlik edən şəxs (yaxud dissertasiya şurasının elmi katibi) iddiaçının müdafiə olunan dissertasiya işi üzrə elmi rəhbəri və ya elmi məsləhətçisi olduqda iclasın sədri (elmi katibi) vəzifəsini tuta bilməz. Dissertasiya şurasının sədri və sədr müavini bu vəzifəni icra edə bilmədikdə və ya iclasda iştirak etmədikdə iclasın sədri vəzifəsi dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə, bir qayda olaraq, həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin işçisi olan dissertasiya şurası üzvlərindən birinə həvalə edilir.

5.12. Dissertasiya şurasının elmi katibi iclasda iştirak etmədikdə onun vəzifəsinin icrası dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə müddət göstərilməklə həmin təşkilatın işçisi olan dissertasiya şurası üzvlərindən birinə tapşırılır.

5.13. Dissertasiya şurasının sədri, onun müavini və elmi katibinin hər üçü iclasda iştirak edə bilmədikdə dissertasiya şurasının iclası təxirə salınır və nəzdində dissertasiya şurası fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbəri bu barədə Komissiyaya yazılı məlumat verilir.

5.14. Dissertasiya şuralarında dissertasiyaların müzakirəsi və müdafiəsi aşağıdakı ardıcıllıq təmin olunmaqla keçirilir:

5.14.1. Dissertasiya şurasının iclasının açılışı zamanı sədr iştiraketmə vərəqi (Əlavə1.7) əsasında dissertasiya şurası üzvlərinə iclasın səlahiyyətli olduğunu elan edir;

5.14.2. İclasın açılışından sonra sədr dissertasiya işinin müdafiəsinə dair (iddia olunan elmi dərəcə, elm sahəsi, ixtisasın şifri və adı, dissertasiyanın mövzusu, iddiaçı, elmi rəhbər (elmi məsləhətçi) və rəsmi opponentlər barədə) məlumat verir;

5.14.3. Sədr iddiaçının təqdim etdiyi sənədlər və onların müəyyən edilmiş tələblərə uyğunluğu haqqında məlumat vermək üçün sözü elmi katibə verir;

5.14.4. Dissertasiya işinin müdafiəsi başlamazdan öncə dissertasiya şurasında bu Təlimatın 4.9-cu bəndi ilə nəzərdə tutulan işçi komissiyanın "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 5.56-cı bəndinə uyğun olaraq hazırladığı yekun rəyin layihəsi dissertasiya şurası üzvlərinə paylanır;

5.14.5. İddiaçı dissertasiyanın mahiyyətini və əsas müddəalarını şərh edir. Bundan sonra rəsmi opponentlər çıxış edir;

5.14.6. Rəsmi opponentlərin hər birinin çıxışından sonra onların iradlarına münasibət bildirmək üçün iddiaçıya söz verilir;

5.14.7. İddiaçı rəsmi opponentlərin iradlarına münasibət bildirdikdən sonra elmi katib dissertasiya şurası üzvlərinin razılığı ilə dissertasiya və avtoreferata dair dissertasiya şurasına daxil olmuş rəylərdə olan iradları qeyd etməklə onların xülasəsini verir. Bu zaman mənfi rəylər bütövlükdə oxunur;

5.14.8. Rəylər oxunduqdan sonra iradlara münasibət bildirmək üçün iddiaçıya söz verilir;

5.14.9. İddiaçı dissertasiya və avtoreferata dair dissertasiya şurasına daxil olmuş rəylərdə olan iradlara münasibət bildirdikdən sonra müdafiədə iştirak edən dissertasiya şurasının üzvləri və digər şəxslər iddiaçıya yazılı və ya şifahi suallar verirlər;

5.14.10. İddiaçı ona verilən sualları cavablandırdıqdan sonra müzakirələr aparılır. Müzakirələrdə şura üzvlərinə və digər mütəxəssislərə söz verilir;

5.14.11. Elmi rəhbər və ya elmi məsləhətçi iddiaçının ilkin çıxışından və ya müzakirələrdən sonra çıxış edə bilər;

5.14.12. Müzakirənin sonunda iddiaçıya yekun söz verilir.

5.15. Dissertasiyanın müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi etikaya riayət edilməsi şəraitində keçirilməlidir. Dissertasiyada olan bütün nəticələrin, elmi və nəzəri-praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması ilə əlaqədar məsələlər hərtərəfli müzakirə edilməlidir.

5.16. "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.11-ci və 4.12-ci bəndlərinin tələbləri pozulduğu halda dissertasiya şuralarının və onların nəzdində yaradılan elmi seminarların sədrlərinə və üzvlərinə, elmi rəhbərlərə və ya elmi məsləhətçilərə, rəsmi opponentlərə Komissiya bu barədə rəsmi xəbərdarlıq edir.

5.17. Dissertasiya şurasında dissertasiya işinin müdafiəsi zamanı dissertasiya, avtoreferat və digər sənədlərdə opponentlər və digər şura üzvlərinin aşkar etdikləri nöqsanların düzəldilməsinə yol verilmir.

5.18. Dissertasiyanın müdafiəsi bitdikdən sonra dissertasiya şurası gizli səsvermə keçirir.

5.19. Elmi dərəcənin verilməsinə dair gizli səsvermənin nəticəsi müsbət olduqda, dissertasiya şurası dissertasiya haqqında açıq səsvermə əsasında sadə səs çoxluğu ilə yekun rəy qəbul edir.

5.20. Dissertasiya şurasının yekun rəyində dissertasiyanın iddiaçı tərəfindən alınmış mühüm elmi nəticələri göstərilir, onların dürüstlüyü, yeniliyi, nəzəriyyə və praktika üçün əhəmiyyəti qiymətləndirilir, dissertasiyanın nəticələrindən istifadə edilməsi haqqında tövsiyələr verilir və onun "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 3.1-ci və ya 3.2-ci bəndlərinin tələblərindən hansına uyğun olaraq qiymətləndirildiyi əks etdirilir.

5.21. Elmi dərəcənin verilməsinə dair gizli səsvermənin nəticəsi mənfi olduqda isə dissertasiya şurası yekun rəy qəbul etmir.

5.22. Dissertasiya şurası müdafiənin nəticəsi haqqında qərar qəbul etdikdən sonra dissertasiya şurasının iclası bitmiş hesab edilir.

## 6. Dissertasiyanın müdafiəsi zamanı gizli səsvermənin və hesablama komissiyasının işinin təşkili

6.1. Gizli səsvermənin keçirilməsi üçün açıq səsvermə əsasında sadə səs çoxluğu ilə iclasda iştirak edən dissertasiya şurası üzvlərindən üç nəfərdən az olmamaqla hesablama komissiyası yaradılır.

6.2. Dissertasiya şurasının sədri, sədr müavini, elmi katibi, iddiaçının elmi rəhbəri və ya elmi məsləhətçisi və rəsmi opponentlər hesablama komissiyasının tərkibinə daxil edilə bilməzlər.

6.3. İddiaçının yekun sözündən sonra hesablama komissiyası tərəfindən dissertasiya şurasının üzvlərinə iştiraketmə vərəqində imza etmək şərti ilə dissertasiya şurasının ixtisas üzrə üzvlərinə Əlavə 1.8, digər üzvlərinə isə Əlavə 1.8.1 ilə müəyyən edilmiş formada hazırlanmış bülletenlər verilir.

*6.4. Çıxarılmışdır.*

6.5. Paylanmamış bülletenlər səsvermədən öncə sayılır, üzərində "Paylanmamışdır" sözü yazılır və bu barədə qeyd hesablama komissiyasının protokoluna (Əlavə 1.9) daxil edilir.

6.6. Dissertasiyanın müdafiəsinin açılışına gecikmiş və ya onun başa çatmasına qədər iclası tərk etmiş dissertasiya şurası üzvləri yetərsay hesablanarkən nəzərə alınmır və onlar gizli səsvermədə iştirak etmirlər.

6.7. İddiaçı dissertasiya şurasının üzvü olduqda o, dissertasiyasının müdafiəsi keçirilən iclasda dissertasiya şurası üzvlərinin siyahısına daxil edilmir və müdafiənin yekunu üzrə gizli səsvermədə iştirak etmir.

6.8. İddiaçı gizli səsvermə başlayana qədər yazılı ərizə ilə dissertasiyaya baxılmanı istənilən mərhələdə dayandıra bilər.

6.9. İddiaçı dissertasiyaya baxılmanı dayandırmaq haqqında dissertasiya şurasına ərizə ilə müraciət etdikdə dissertasiya şurasının sədri ərizəni, dissertasiyanın və avtoreferatın bir nüsxəsini dissertasiya şurasında saxlamaqla, iddiaçının təqdim etdiyi digər sənədlərin ona qaytarılması haqqında qərar qəbul edir.

6.10. Gizli səsvermə zamanı dissertasiya şurasının iclasında iştirak edən müdafiənin keçirildiyi ixtisas üzrə dissertasiya şurasının üzvləri və dissertasiya şurasının digər üzvləri forması Komissiya tərəfindən müəyyən edilən bülletenlər vasitəsilə səs verirlər.

6.11. Hesablama komissiyasının üzvləri səsvermə qutusunu açır, bülletenləri sayır və səsvermənin nəticələrinə dair protokol (Əlavə 1.9) tərtib edirlər.

6.12. Səs verən dissertasiya şurasının üzvü iddiaçını elmi dərəcəyə layiq bildikdə bülletendə “Razı deyiləm”, layiq bilmədikdə isə “Razıyam” sözlərinin üstündən xətt çəkir və bülleteni şəffaf səsvermə qutusuna salır.

6.13. Səsvermənin nəticəsini müəyyən etmək mümkün olmadığı və ya “Razıyam” və “Razı deyiləm” sözlərinin hər ikisi saxlanıldığı və ya pozulduğu hallarda həmin bülleten etibarsız sayılır və bu barədə hesablama komissiyasının protokolunda qeyd aparılır.

6.14. Müdafiənin keçirildiyi ixtisas üzrə iclasda iştirak edən dissertasiya şurası üzvlərinin azı üçdə ikisi və dissertasiya şurasının iclasda iştirak edən digər üzvlərinin azı üçdə ikisi iddiaçıya fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi verilməsinin lehinə səs verdikdə, gizli səsvermənin nəticəsi müsbət hesab edilir.

6.15. Hesablama komissiyasının protokolunda əvvəl müdafiənin keçirildiyi ixtisas üzrə dissertasiya şurası üzvlərinin səsverməsinin nəticəsi, sonra dissertasiya şurasının digər üzvlərinin səsverməsinin nəticəsi göstərilir. Protokol iclasda iştirak edən dissertasiya

şurası üzvlərinin sadə səs çoxluğu ilə açıq səsvermə yolu ilə təsdiq edilir. Hesablama komissiyasının bütün bülletenləri protokola əlavə edilir.

6.16. Hesablama komissiyasının protokolu hər hansı səbəbdən təsdiq edilmədikdə yeni bülletenlər hazırlanır və dissertasiya şurasında yenidən gizli səsvermə keçirilir.

6.17. Hesablama komissiyasının protokolunun təsdiqindən sonra dissertasiya şurasının üzvlərinə paylanmış yekun rəyin layihəsi müzakirə olunur.

## 7. Yekun müddəalar

7.1. Dissertasiya şuralarının qərarlarından iddiaçılar və digər maraqlı şəxslər həmin qərarların qəbul edildiyi tarixdən iki ay müddətində Komissiyaya şikayət verə bilərlər.

7.2. Fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili ilə bağlı bu Təlimatla tənzimlənməyən digər məsələlər “Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Əsasnaməsi” və “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə” ilə tənzimlənir.

**Əlavə 1.1**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına

_____________________________________________________________________________ tərəfindən
(elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı, ünvanı, telefonu, elektron poçtu)

_____________________________________________________________________________ ixtisasında
(ixtisasın şifri və adı)

_____________________________________________________________________________ ixtisasında
(ixtisasın şifri və adı)

_____________________________________________________________________________ ixtisasında
(ixtisasın şifri və adı)

_____________________________________________________________________________ ixtisasında
(ixtisasın şifri və adı)

________________________________________ üzrə ________________________________________
(elm sahəsi) (fəlsəfə doktoru və ya elmlər doktoru)

dissertasiyalarının müdafiəsinin təşkili məqsədilə yaradılması təklif olunan dissertasiya şurasının üzvləri haqqında

**M Ə L U M A T**

| Sıra nömrəsi | Soyadı, adı, atasının adı, şurada vəzifəsi | Elmi dərəcəsi, ixtisasının şifri və adı | Elmi adı | Şurada təmsil olunduğu ixtisasın şifri və adı |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

Elmi müəssisə və təşkilatın,
ali təhsil müəssisəsinin rəhbəri ____________ ________________________________
(imza) (elmi dərəcəsi, elmi adı, adı, soyadı)

M.Y. Tarix

Qeyd:

1. Cədvəldə siyahının əvvəlində şuranın sədri, sədr müavini və elmi katibi vəzifələrinə namizədlər, sonra isə əlifba sırası ilə şura üzvlüyünə digər namizədlər haqqında məlumat verilir;
2. Cədvəlin "Elmi dərəcəsi, ixtisasının şifri və adı" və "Şurada təmsil olunduğu ixtisasın şifri və adı" sütunlarında ixtisasların şifrləri və adları "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələr verilməsinə dair ixtisasların nomenklaturu"na uyğun olaraq göstərilir;
3. Məlumat elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin əsas möhürü ilə təsdiq edilir, kağız və elektron daşıyıcıda təqdim olunur.

**Əlavə 1.1.1**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına

______________________________________________________________ tərəfindən
(elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı)

________________________ üzrə ________________________________________
(elm sahəsinin adı) (fəlsəfə doktoru və ya elmlər doktoru)

dissertasiyalarının müdafiəsinin təşkili məqsədilə yaradılması təklif olunan dissertasiya şurasının üzvləri haqqında

